Mən necə rahat yata bilərəm
balalarımla
Bu güllü, bu sarmaşıqlı eyvanda?
Kaş dünyanın heç yerində
nahaq qanlar axmayaydı,
Hakim xalqlar
məhkum xalqlara
zülm edib, xor baxmayaydı.
Fəlakətə, müsibətə qarşı insan
qardaş kimi
sinə gərib
bir çıxaydı hər bəladan.
Bəlkə azalardı onda
insanın əlacsız dərdi.
Gecələri analar da
yatağında
rahat yata bilərdi.

ODLU-ALOVLU GÜNLƏR

GET, SEVGİLİM, UĞUR OLSUN!

Heç gözlərim yaşarmadı
sən ayrılıb gedən zaman,
Get, sevgilim, uğur olsun,
sən mərd vuruş, sən mərd dayan!
Qoru təmiz eşqimizə
gülümsəyən al səhəri,
İlk gəncliyin şən çağında
çiçək açan bu yerləri.
Qoru əziz xatirələr
dolu olan bu torpağı!
Əzəmətli vətənimin
dincliyini pozan yağı
Qoy bilsin ki, mərd igidlər,
sona qızlar bəsləyən el
Azğın faşist quldurunun
önündə diz çökən deyil!
Sən gedəndə ağlamadım,
gözlərimdə od yanırdı,
Qəlbim böyük həqiqətə
bir inamla inanırdı,
Bilirdim ki, getdiyin yol
müqəddəsdir, mərd yoludur.
Qəlbindəki vətən eşqi,
müqəddəsdir, çox uludur.
Bilirdim ki, sənin yolun
məğlubların yolu olmaz!
Sən əsgərsən, əsgər olan
döyüşlərdə heç yorulmaz!

İlk baharda açılarkən
bağçalarda ağ yasəmən,
Vətən üçün vuruşlardan
sən zəfərlə dönəcəksən.
O gün həsrət çəkən gözlər
bir sevinclə yanar, yanar,
İlk baharın al laləsi
bayraq kimi dalğalanar.
Üfüqlərdən qalxan günəş
salamlayar səni tezdən,
Bəlkə sevinc yaşlarıyla
ağlayaram o zaman mən.
Sən zəfərlə ana yurda
döndüyün vaxt, o gün səhər
Mən qarşına çıxacağam
qucağımda al çiçəklər.
Qəhrəmanlıq sorağını
alan zaman, onda hamı,
Qoy bilsin ki, kimdən alır
mənim şerim xoş ilhamı.

VƏTƏN QIZLARI

Ey vətənin alnı açıq, südü təmiz mərd anası,
Bizim yaşıl obaların cəsur qızı, şux sonası.
Ana vətən çox görmüşdür, sənin böyük hünərini,
Gah sularda, gah göylərdən almış sonin xəbərini.
Şahin kimi qanadlanıb sən uçmusan havalarda,
Vətən üçün aslan kimi vuruşmusan davalarda.
Sən bir qızıl dənizçisən, hökm etmisən dənizlərə,
Bir quş kimi paraşütlə atılmısan göydən yerə...
İlham dolu, həyat dolu, şux səsini dinləmişdir –
Dənizlərdə qızıl matros, cəbhələrdə gənc komandir.
Kəndlərə elm aparıbsan gənc bir müəllim kimi sən,
Həkim olub uzun illər elə xidmət eləmisən.
Sən sürmüsən traktoru torpaqları yara-yara,
Sən hərəkət öyrətmisən uzun yolda qatarlara...

Sən torpağın alt qatından qara qanlar çıxartmısan,
Sənin böyük iradənə heyran olmuş bütün cahan...
Sən quşqonmaz qayalardan mədən və daş axtararaq,
Qalibiyyət şüarını eləmisən daim bayraq.
Ana yurdun xilaskarı, o tunc, polad qollu ərlər
Sənin təmiz südün ilə bəslənərək böyümüşlər.
Sən nəsillər böyüdərək, qəhrəmanlar yetirmisən,
Cavanşirə, Koroğluya süd vermisən döşlərindən.
Sənin adın qalibiyyət şüarıyla birgə gedir.
Həyat səni alqışlayır, tarix səni təqdir edir.
Fidan kimi bəsləyərək, əzizləmiş səni vətən.
Bu gün ona öz borcunu dönə-dönə verməlisən.
Gözüqanlı bir canavar hücum çokmiş torpağına,
Göz dikmişdir qarı düşmən sənin isti ocağına.
Viran qoyub obaları, tikir zülmün qalasını,
Mələr qoyub ayrı salır analardan balasını.
Ana kimi müdhiş olur, bunu bilsin azğın düşmən,
Can qurtara bilməyəcək sənin aslan qəzəbindən...
Üç oğlunu yola saldın, heç gözlərin yaşarmadı,
Ana qəlbin kövrəldisə, ağlamağı bacarmadı...
Kiçik qızın çantasını alıb yola düşdü haman.
O heç geri qalardımı üç istəkli qardaşından?!.
Mərd analar qapılara çıxıb yaylıq salladılar.
Ey müqəddəs ana, sənin nə qəhrəman xislətin var...
Sən də nişan üzüyünü çıxararaq barmağından,
Verdin vətən üçün bu gün, dedin: – Zəlil olsun
düşmən.
Gəlir səsin cəbhələrdən, tarlalardan, şaxtalardan.
Qorxu nədir bilməmisən nə borandan, nə də qardan.
Sən düşməni məğlub elə, ön cəbhədə və arxada,
Əziz vətən torpağını sən vermezsən heç bir yada.
Sənin tarix boyu böyük və möhtəşəm keçmişin var,
Döşlərindən süd əmmişdir məhsətilər, natəvanlar.
Həcər sənin doğma qızın, Aşıq Pəri övladındır,
Nər şahinlər oğulların, gənclik sənin qanadındır.
Alqış sənə, şərəf sənə, şöhrətin də aşıb-daşır,
Sən mərd dayan, böyük qadın, sənə mərdlik çox
yaraşır!..

QƏHRƏMANIN ÖLÜMÜ

Sis qalxırdı meşələrdən,
Bürüyürdü hər yanı çən.
Yenə zülmət içindəydi
Ana vətən, gözəl vətən.
Gurlayırdı coşan sular,
Sahilləri aşan sular.
Sanki böyük bir matəmdən
Verirdilər nişan sular.
Budaqdan ayrılan yarpaq,
Tapdalanan ana torpaq,
Yuvasını itirən quş,
Xərabədə ötən bayquş,
Körpələrin iniltisi,
Anaların fəryad səsi.
Zülmət hökm edir hər yana,
Sanki torpaq fəğan edir,
Yalvarırdı hər insana:
– Oğlum, qızım, övladım, gəl.
Yana-yana ağladım, gəl,
Sinəmə dağ çəkdi düşmən,
Göyə çıxdı fəryadım, gəl!
Əziz oğlum, xilaskarım,
Zəncirləndi arzularım...
Düşdüm yağı əllərinə,
Talandı dövlətim, varım,
Qurtar məni, qurtar məni,
Ağ günlərə çıxar məni.
Azad ellər torpağıydım,
Ayaqladı murdar məni!..
Ana vətən harayladı
Dar günündə övladını,
Onun şahin oğulları
Eşitdilər fəryadını.

Bizim kiçik qəhrəman da
O gün silah aldı ələ,

Anasının gözlərindən
Öpdü dərin həsrət ilə.
Dedi: – Ana, toxta barı,
Sən başını tut yuxarı,
Mən gedirəm vuruşlara,
Ana vətən düşmüş dara...
Sağlıqla qal, əziz ana,
Ölüm yoxdur qəhrəmana...

Pəncərə şüşəsində
Şaxta naxış salanda,
Qafqaz meşələrində
Havalar qaralanda,
Obaların üstünə
Kölgə düşdüyü zaman,
Bir axşam evlərindən
Çıxıb getdi qəhrəman.
Qarların üzərində
Ceyran tək iz buraxdı,
Anasının qəlbini
Təsəllisiz buraxdı...
Onun doğma kəndini
Əsir etmişdi yağı,
Tapdamışdı bu əziz,
Bu müqəddəs torpağı.
Qəhrəmanım bu ağır
Zülmə dözə bilmədi...
Anasının üzündən
Göz yaşını silmədi.
Tapdı partizanları
Gecə zülmət çəkəndə...
Onlarla birgə girdi
Qəhrəmanım da kəndə.
Hücum edib qəflətən
Kəndi azad etdilər.
Sağ qalmadı o gecə
Faşistlərdən bir nəfər.

Üfüqlərdə al bayraq
Vüqarla dalğalandı.
O günü doğma kəndin
Ocaqları gur yandı...
Yalnız körpə qəhrəman
Evinə qayıtmadı.
Anasını yuxudan
Bir daha ayıltmadı.
Oğlunu ağlamadı
O mərd, mehriban ana,
Bildi ki, yoxdur ölüm
Bu eldə qəhrəmana.
Unutmaz övladını,
Nəsillər əziz tutar
Onun əziz adını.

DƏNİZDƏ BİR QIZ ÇİMİRDİ

Dənizdə bir qız çimirdi
Saçı qara, özü gözəl.
Yaratmışdı sanki onu
Mahir bir əl, qadir bir əl.
İncə rəssam duyğusumu,
Yoxsa şair xəyalımı
Belə dilbər yaratmışdı
Şəhla gözlü bu zalımı?!
Parlaq günəş şöləsində
Gah yuyunur, gah dururdu,
Bəzən sonatək silkinir,
Bəzən suya baş vururdu...
Sən düşməni buraxmadın
Bulağından su içməyə,
Ceyran keçən cığırlardan
Sən qoymadın yad keçməyə.
İndi yaxşı yu, təmizlə
Göy Xəzərdə, körpə quzu,
Hərbin tozlu yollarından

Saçlarına qonan tozu.
Doğma yurdun sahilində
Soyunduğun hərbi köynək,
Sinən üstdən keçən qayış,
Verir sənə özgə bəzək.
İndi əsgər libasını
Soyunsan da, dilbər sona,
Mən bilirəm sən qoymazsan
Bu köynəyə ləkə qona.
Sənin odlu, çarpan qəlbin
Onun altda çox döyündü,
Sən qəhrəman işlər gördün
Şöhrətinlə el öyündü.
Sənin təmiz vicdanının
Bir ləkəsiz aynası var.
Saçlarına qonan tozu
Yusun, silsin qoy dalğalar!
Bil ki, quzum, bu tozların
Ləkəsini aparar su,
Bu dünyada müqəddəsdir
Yüksək əməl, təmiz arzu!
Yalnız könül çirklənərsə,
Tozlanarsa bir gün ürək,
Bu dünyada heç bir suyla
Olmaz onu təmizləmək!

Alnıaçıq və mərd çıxdın
Sən tufanlar arasından.
Öpdü anan pak sinənin
O müqəddəs yarasından.
Hər bir damla qanın sənin
Azadlığın laləsidir,
Gözündəki sevinc yaşı
İlk baharın jaləsidir.
Açıb sevinc çiçəyini
Qəlbindəki böyük arzu.
Öz ananın südü kimi
Halal olsun sənə bu su!..

EŞQ OLSUN

Mahnının musiqisini
Ərtoğrul Cavid bəstələmişdir

Get, oğlum, yaxşı yol, uğurlar olsun,
Vətən məhəbbəti sənə yar olsun.
Dilində yurdumun müqəddəs adı,
Eşq olsun vətənin cəsur övladı,
Getdiyin yollardan min zəfər gətir,
Qanlı cəbhələrdən xoş xəbər gətir.
Ana yurdumuza yadigar üçün
Döyüş meydanından bir hünər gətir.
Qoy həqir baxmasın yurduma bir kəs,
Dünyada hər şeydən odur müqəddəs.
Sənin kimi şahin övladı olan
Qəhrəman bir ana yenilə bilməz.

XƏRABƏDƏ BİTƏN ÇİÇƏK

Xərabədə bitən çiçək, düşündürdü məni bir az,
Bəs nədəndir, deyirlər ki, viranədə gül açılmaz?
Mən gördüyüm kiçik evin divarları dağılmışdı,
Bu daş torpaq arasında şux bir çiçək,
acı külək,
soyuq qışdı.
Vəhşi əllər dağıtmışdı bu sevimli aşiyanı,
O, matəmə qərq edirdi burdan keçən hər insanı.
İncə qadın əlləriylə işlənilmiş pərdələr də
Bir yaralı bayraq kimi
çürümüşdü bu yerlərdə.
Bu daş-torpaq arasından şux bir çiçək
boy atmışdı.
Fikrimdəki bu sualı çiçək məndə oyatmışdı.
Hansı bağban bəsləmişdir, dedim, səni,
gözəl çiçək?

Öz ömrünün dastanını bir dil açıb
danış görək!
Burda çoxdan susmuş idən bülbüllərin
təranəsi,
Qaldırdımı səni yerdən ilk baharın xoş nəfəsi?
Çiçək dilə gəlib dedi: – mən torpağın öz səsiyəm,
Ölümlərə qalib gələn böyük həyat qüvvəsiyəm!

DÜŞMƏN GÜLLƏ YAĞDIRIRDI İŞIĞA

1941-ci ildə Leninqradda Nizaminin 800 illiyinə həsr edilmiş gecə keçirilmişdir

Düşmən mühasirəyə almışdı
şəhəri.
Neçə gün, neçə gecəydi
insanların bir an belə
qapanmamışdı
gözləri...
Bu susuz, çörəksiz,
yanacaqsız şəhərdə,
Soyuq, ac,
Odsuz, ocaqsız, şəhərdə,
Bir sənət məbədində
Toplaşdı alimlər, yazıçılar,
Ona pərəstiş edən
sadə insanlar...
İşıq çıxmasın deyə bayıra
Pəncərə-qapını basdılar,
Yaralı divarlardan
Nizaminin şəklini asdılar
Ağsaçlı, nurani bir şair
İclas açdı,
söz dedi,
Sənətin sönməz məşəlini
Səkkiz əsrdən bəri
yüksəklərdə tutan,

Azərbaycan torpağının
Yetirdiyi
Bu söz və fikir ustasına dair.
"Leyli və Məcnun", "Xosrov və Şirin"
"Yeddi gözəl",
Böyük ümid, yüksək arzu,
parlaq əməl.
"Sirlər xəzinəsi" –
Mərdlik, hünər xəzinəsi...
Dahi şair bizə
Leylinin sədaqətini,
Fərhadın inadını, iradəsini
Yadigar qoyub gedib.
Sənətin sirrini,
əbədi həyat badəsini
Yadigar qoyub gedib.
O, ən nəcib fikirlər,
Ən nəcib arzular,
niyyətlər şairi idi,
O, dünya, bəşər şairi idi.

Danışırdı məruzəçi,
Şairlər onun əsərlərindən
oxuyurdu,
Sonra yada saldılar
Doğulub yaşadığı yurdu...
Qəhrəman şəhər
alqışlayırdı sənət qəhrəmanını,
alqışlayırdı onun
parlaq zəkasını,
böyük vicdanını...
Bayırda güllələr, bombalar yağırdı şəhərə,
Fərhad iradəli,
Leyli sədaqətli insanlar
Toplaşıb alqış deyirdi
Həyata, sənətə, hünərə...

UZAQDA

Yanında olmasam da, qəlbindəyəm, bilirəm,
Bir an həsrət yaşını gözlərimdən silirəm.
Nə yüngül bir macəra, nə də sevda həvəsi,
Bunlar deyil bağlayan, yaxın dost edən bizi.
Ən dərin duyğularla qəlbimiz çırpdı hər an,
Zamanın sınağından, illər imtahanından
Çıxmış gözəl dostluğun ittifaqı möhkəmdir.
Yüngül, boş arzuların aqibəti ələmdir.
Mən səni cəbhələrə yola salıb gözlədim,
Sorağını uzaqdan alıb, alıb gözlədim...
Bəzən xəbər gəlmədi, aldatmadım özümü,
Yollarından çəkmədim həsrət dolu gözümü.
Başım odlar içində qollarıma yaslandı,
Adını çəkən zaman kirpiklərim islandı.
Biz heç ayrı olmadıq fəlakətdə, kədərdə,
Birlikdə güldü bizə fərəh də, sevinclər də.
İndi həsrət yaşını gözlərimdən silirəm,
Yanında olmasam da, qəlbindəyəm, bilirəm!

SƏYAHƏT ŞEİRLƏRİ

SƏRKƏRDƏ VƏ QIRMIZIPAPAQ QIZ HAQQINDA BALLADA

Başında üçbucaqlı papaq,
Başının üstündə qan ləkəli bayraq.
Zəfər sözü dilində,
Yalın qılınc əlində,
Sərkərdə qanlı səfərə çıxdı;
Yürüş elədi ölkələrə,
Ölüm və qan gətirdi
Ayaq basdığı hər yerə.
At bağlatdı sənətin
Ulu mehrablarına,
Dağ çəkdirdi xalqların
Möhtəşəm vüqarına.
İdrak yaratdığını
Tonqallara qaladı.
Şəhərləri, kəndləri
Vurdu, çatdı, taladı.
Torpağın sinəsindən
Su yerinə qan axdı.
Sərkərdə öz başına
Zəfər çələngi taxdı.
Əlləri diz çökdürdü,
Yurdlara divan tutdu.
Zəfərlər qazandıqca
Gözlərini qan tutdu.
Şöhrətli keçdi onun
Həftələri, ayları.
Nə zaman möhkəm olmuş
Göz yaşından yaranan

Səadət sarayları?
O, tənha bir adada
Sürgünlərdə verdi can.
Əkdiyini biçəcək
Bu dünyada hər insan.
Qan tökdüyü torpaqda
Öz dizləri büküldü.
Zəfər çələngləri də
Xəzəl olub töküldü.

Başında qırmızı papaq,
Əlində zənbil
Balaca bir qız da çıxdı
Həmin ölkədən.
Nənəsinə şirin qoğal,
Bir də süd aparırdı.
Ellərə, obalara şirin dilək,
Arzu, ümid aparırdı.
Nəsil-nəsil uşaqlar
Qırmızıpapaq qızın
Nağılına qulaq asdı.
Qırmızıpapaq qız
Uzaq-uzaq ölkələr gəzdi,
Dolaşdı elləri, obaları,
Oxşadı saçlarını
Dağların, dərələrin
Sərin rüzgarı.
Bulaqlardan su içdi,
Uzun yollardan keçdi;
Könülləri fəth elədi,
Ürəklərdə yuva saldı.
Hər obada, hər oymaqda
Gecələyib qonaq qaldı.
Uşaqlara çox mehriban
Bir dost oldu bu alpapaq.
Nə vaxt əziz olmamışdır
Xoş niyyətlə gələn qonaq?!